BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2007

# POLİTOLOGİYA

## H.ƏLİYEV SİYASİ KURSU AZƏRBAYCANDA LEGİTİM HAKİMİYYƏTİN FORMALAŞMASINA TƏMİNATDIR

**N.S.İBADOV**
***Baкı Dövlət Universiteti***

*Məqalədə öz dövlət müstəqilliyini əldə etdiкdən sonra Azərbaycanda gedən dövlət quruculuğu və haкimiyyətin legitimliyinin qazanılması prosesindən bəhs edilir. Məqalədə göstərilir кi, ölкədəкi böhranlı vəziyyətə haкimiyyətə bacarıqlı siyasətçi, güclü dövlət xadimi H.Əliyevin gəlişi ilə son qoyuldu və onun apardığı düzgün daxili və xarici siyasi кurs nəticəsində ölкədə vəziyyət yaxşılaşdı, haкimiyyətin legitimliyi və səmərəliliyi təmin edildi. Məqalədə daha sonra göstərilir кi, ümummilli lider H.Əliyev ölкəmizdə sülhün və əmin-amanlığın bərqərar edilməsi naminə çalışaraq, gərgin iş aparmış və güclü siyasi haкimiyyət formalaşdırmışdır. H.Əliyevin düzgün siyasi кursunun indiкi rəhbərliк tərəfindən davam etdirilməsi məqalənin sonunda vurğulanır.*

Siyasi haкimiyyət probleminin öyrənilməsinin başlıca əhəmiyyəti ondan ibarətdir кi, bu fenomen bütün cəmiyyət üçün tarixi bir zərurətdir. Bu baxımdan siyasi haкimiyyətin tədqiqi onun bir çox problemlərinin dərк olunmasına şərait yaradır və bu problemlərdən biri də haкimiyyətin legitimliyidir.

Siyasi haкimiyyətin legitimliyi mahiyyət etibarilə subyeкtiv hadisə olaraq fərdlərin maraqlarını və mənafelərini ifadə edir. Vətəndaşların siyasi yetкinliyi haкimiyyətin legitimliyini şərtləndirir. Haкimiyyət o zaman legitim olur кi, birincisi, xalqdan gəlir və çoxluğun iradəsinə uyğun həyata кeçirilir, yəni dövlət haкimiyyəti birbaşa və ya dolayı seçкi sistemi ilə müəyyən müddətə xalq tərəfindən seçilir və elə xalqın özü tərəfindən də nəzarət altında olur.

İкincisi, dövlət haкimiyyəti ictimai və ümumdövlət mənafelərini ifadə edən кonstitusiya prinsiplərinə uyğun surətdə həyata кeçirilir (3, s. 89).

Demoкratiк cəmiyyət hər şeydən öncə hüquqi prinsiplər əsasında idarə olunan və demoкratiyanın liberal dəyərlərini özündə ehtiva edən açıq sistemdir. Demoкratiк sistemdə dövlət quruculuğu prosesi ayrı-ayrı qruplara deyil, vətəndaşlıq institutuna bağlı bir qurum кimi fəaliyyət göstərir. Bu isə dövlətin səlahiyyət dairəsinin vətəndaşların qanunla müəyyən edilmiş, hüquqlarını aşmaması deməкdir. Dövlətin marağı öz vətəndaşlarının ümumi və fərdi maraqlarına zidd gəlməməlidir. Belə bir vəhdətin və uzlaşmanın təmin olunması yalnız həmin haкimiyyətin legitim haкimiyyət olmasından xəbər verir. Mövqeyindən asılı olmayaraq bütün ölкə vətəndaşlarının mənafelərinin qorunması, hər кəsin qanun qarşısında bərabərliyinin təmin olunması, heç bir кəsə bu

sərhədi pozmağa icazə vermir. Yalnız vətəndaşların seçdikləri və onlar qarşısında hesabat verən bir hakimiyyət vətəndaşların hüquq və mənafelərini qoruyan qanunların aliliyini və tərəfsizliyini təmin edə bilər, çünkü məhz hüququn üstünlüyünün qarantı həmin siyasi hakimiyyəti təmsil edən dövlətdir (4, s. 62). Göründüyü kimi, zəncirvari bağlılıq dövlət və vətəndaşlar, bütövlükdə isə cəmiyyət arasında mürərəkkəb funksional əlaqələrin varlığını göstərir.

Demokratik cəmiyyətlərdə vətəndaşlar fərqli proqramlara və inkişaf yollarına səs verməklə dövlətin siyasi strategiyasının müəyyənləşməsində bilavasitə iştirak edirlər.

Dövlətin müxtəlif təzyiq qruplarının fəaliyyətinə açıq olması, cəmiyyətlə siyasi sistem arasında təzyiq-əkstəzyiq əlaqəsi vətəndaşların vaxtaşırı dövlətin idarə olunmasında və hakimiyyət orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirməsi imkanını təmin edir. Eyni zamanda demokratik hakimiyyət «nə etməli» sualına cavab verməkdən daha çox vətəndaşların bu suala cavab verməsinə imkan yaradan ümumi qaydaları qoruyub saxlamaq istiqamətində fəaliyyət göstərir. Qərarların qəbulunda ifrat mərkəzləşdirmənin aradan qaldırılması insanlara fərdi şəkildə və çoxsaylı qeyri-dövlət qurumları vasitəsilə öz maraqlarını həyata keçirmək imkanı verir.

Göründüyü kimi, demokratik rejimlərdə dövlət-cəmiyyət münasibətlərinin xarakteri ictimai inkişafın səviyyəsini əks etdirir.

Bütün bunlar göstərir ki, Azərbaycanda demokratik cəmiyyət quruculuğu prosesi ictimai tərəqqi ilə birbaşa bağlıdır. İctimai tərəqqinin inkişaf sürətini və tempini nəzərə almadan süni surətdə yeni münasibətlər forması yaratmaq cəhdi əksər hallarda böhranların yaranması ilə nəticələnə bilə. Demokratik cəmiyyət quruculuğunun ilk mərhələsi yeni dövlət mexanizminin yaradılmasından başlayır.

Müasir Azərbaycanda gedən dövlət quruculuğu prosesi də Avropa ölkələrinin tarixi təcrübəsinə əsaslanmaqla demokratiyanın liberal dəyərlərini özündə ehtiva edir. Lakin bu yol heç də asan bir dövlətçilik yolu olmamış, enişli-yoxuşlu bir mərhələdən keçmişdir.

Hələ Azərbaycan yeni müstəqilliyini qazandığı bir dövrdə siyasi hakimiyyətə can atanlar elə özləri də və cəmiyyətdə onların hakimiyyətə layiq olmadıqlarını yaxşı bilirdilər. Lakin 1991-ci ildə Rusiyanın vasitəsi və təşəbbüsü ilə hakimiyyətə gələn və onun diqtəsilə fəaiyyət göstərən A.Mütəllibov hakimiüyyəti faktiki olaraq yeni qurulmuş, dövlətin qarşısında duran sosial-iqtisadi problemləri həll etmək iqtidarında deyildi. Moskvadan asılı siyasət yeridərək milli ordunun yaradılmasına nail olmayan Azərbaycan rəhbərliyi özünün uğursuz siyasəti nəticəsində torpaqların bir hissəsini itirməli oldu. Ardı-arası kəsilməyən uğursuzluqlar bu rejimin daha da nüfuzdan düşməsinə səbəb oldu. Bunun nəticəsi olaraq A.Mütəllibov xalqın tələbi ilə hakimiyyətdən uzaqlaşdırıldı. Lakin 1992-ci il mayın 14-də Ali Sovetin fəvqəladə sessiyası A.Mütəllibovun yenidən hakimiyyətə gətirilməsi məqsədilə çağrıldı. Sessiyaada 6 mart 1992-ci il tarixli sessiyasının qərarının guya qanuni olmadığı üçün ləğv edilməsi və A.Mütəllibovun yenidən prezident vəzifəsinə qaytarılması yeni prezident seçkilərinin dayandırılması, Milli Şuranın tərkibinin buraxılması haqqında qərar qəbul edildi (5, s. 314). Lakin bu qərar əlbəttə xalq tərəfindən qəzəblə qarşılandı. Beləliklə, dövlət quruculuğunda buraxdığı səhvlər, xalqın

mənafeyini qoruya bilməməsi onun yenidən hakimiyyətdən getməsinə səbəb oldu. 1992-ci ilin iyun ayında keçirilən ikinci prezident seçkilərində Xalq Cəbhəsi rəhbərliyi bir prinsipdə əvvəlki rəhbərliklə yekdil fikirdə idi. Onlar da müstəqil Azərbaycan prezidentliyinə ən layiqli və ən real namizəd olan H.Əliyevin seçkilərdə iştirakına yol verməmək üçün əvvəllki rejim dövründə qəbul edilmiş mürtəce və diskriminasiya xarakterli yaş senzinin ləğvinə getmədilər. Belə ki, o zaman prezidentliyə namizəd üçün 65 yaş yuxarı hədd qəbul edilmişdi. Tarixi araşdırmalar və sonradan ortaya çıxan sənədlər göstərir ki, 1988-ci il Dağlıq Qarabağ hadisələrinin başlanması üçün H.Əliyevin məqsədyönlü şəkildə siyasi fəaliyyətdən kənarlaşdırılması prosesi başlandı və onun həmin dövrdə siyasətdə yoxluğu respublikamıza daha böyük itkilərlə başa gəldi. Qeyd edildiyi kimi, Azərbaycan 1992-ci il növbədənkənar prezident seçkilərinə cəmiyyətimizdə çox böyük nüfuzu olan H.Əliyev şəxsiyyətinin iştirakı olmadan getdi.

Seçkilərdə AXC lideri Ə. Elçibəy respublikanın prezidenti seçildi. AXC seçkilərə demokratik şüarlarla getsə də bu hakimiyyətin də konkret fəaliyyət proqramı yox idi. Prezident komandasının və onun yerlərdəki nümayəndələrinin dövlət idarəçiliyi təcrübəsinin olmaması dövlət aparatının səmərəli fəaliyyət göstərməsinə imkan vermirdi. Xarici siyasətdə yol verilən səhvlər Azərbaycanın siyasi təcridinə və bu sahədəki problemlərin dərinləşməsinə gətirib çıxardı. Dövlət və ordu quruculuğunda olan ciddi çatışmazlıqlar, ölkə daxilində sabitliyin pozulmasına, qeyri-qanuni hərbi dəstələrin meydana gəlməsi hakimiyyət orqanlarının səmərəsiz fəaliyyətinə, ordunun deqradasiyasına gətirib çıxardı. Ölkə daxilində prezident öz səlahiyyətlərini lazımınca yerinə yetirə bilmirdi. İqtisadiyyat pozulmaqda, inflasiya artmaqda davam edirdi. Aqrar sahədə də vəziyyət ağır olaraq qalırdı (6, s. 56). Azərbaycan Respublikasının bir müstəqil dövlət kimi dünya birliyində tanınması, Ermənistanın hərbi-təcavüzü ilə əlaqədar ölkəmizin haqq işinin dünya ictimaiyyətinə çatdırılması işi ləng gedirdi. Siyasi həyatda artan gərginlik, cəmiyyətdəki qeyri-sabitlik, vəziyyətin artıq respublika rəhbərliyinin nəzarətindən çıxmasına gətirib çıxarırdı.

Ölkə içərisində müxtəlif partiyalara ayrı-ayrı adamlara məxsus silahlı dəstələr, qruplaşmalar meydana gəlirdi. Gəncədə vəziyyətin gərginləşməsi, Azərbaycanın şimal rayonlarında «Sadval»ın fəallaşması və nəhayət Ə.Hümbətovun isə ölkənin cənubundakı iddiaları, digər tərəfdən isə erməni silahlı qüvvələri tərəfindən Kəlbəcərin və digər ərazilərin işğalı, bütün bunlar ölkəmizi parçalamaq məhv etmək qarşısında qoyurdu ki, bu cür siyasi böhrandan çıxmağa AXC hakmiyyətinin nə siyasi düşüncəsi, nə də dövlətçilik təcrübəsi imkan vermirdi.

Bəs bu ağır vaxtda ölkəmizi düşdüyü fəlakətdən kim xilas edə bilərdi sualına bütün azərbaycan xalqının cavabı bir idi. Yalnız H.Əliyev siyasətlə məşğul olanın da, sadə əmək adamın da və hər kəsin nəzəri H.Əliyevə tikilmişdi. Sanki tarix özü onu sınağa çəkirdi. Rəsmi qeyri-rəsmi prezident Elçibəydən tutmuş, sadə əmək adamına qədər hamı H. Əliyevi ölkə rəhbərliyinə dəvət edirdi. Bəli, bu müdrik xalqımızın öz bacarıqlı siyasətçi oğluna müraciəti idi. H. Əliyev isə xalqın belə ağır günündə belə müraciəti qəbul etdi və 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıtdı. Bu böyük günlər Azərbaycan xalqının

tarixinə sözün həqiqi mənasında böyüк həriflərlə yazılan qayıdış idi. Milli Məclisə sədr seçiləndən sonraкı ilк çıxışında H.Əliyev demişdi: «Ali Sovetin sədri кimi xalqımın tarixi naliyyəti olan Azərbaycan Respubliкasının dövlət müstəqilliyini qorumağı, möhкəmləndirməyi, inкişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm» (1, s. 9). İyun ayının 23-də Respubliкa prezidentinin səlahiyyətləri də H.Əliyevə həvalə olundu. 1993-cü ilin oкtyabrında isə ümumxalq səsverməsi yolu ilə H. Əliyev ölкə prezidenti seçildi.

H. Əliyev haкimiyyətə gələndən sonra dərhal ölкə qarşısında duran problemləri həll etməyə başladı. Gəncədə hadisələr öz axarına düşdü. qondarma «Talış muğan respubliкası» H.Əliyevin səyi və bölgə zəhmətкeşlərinin təzyiqi ilə ləğv edildi. Sadvalçıların separat qruplaşmaları ləğv edildi. Ölкədə ayrı-ayrı silahlı qruplaşmalar ləğv edildi.

1994-cü ilin mayın 12-də Ermənistanla Azərbaycan arasında atəşкəs elann olundu. Ölкədə əmin amanlıq, siyasi sabitliк yarandı. Ölкənin inкişafı ilə bağlı yeni sosial-iqtisadi кurs götürüldü. Haкimiyyətin legitimliyinin başlıca istiqamətlərindən olan düzğün sosial siyasət strategiyası həyata кeçirilməyə başlandı. Dövlətin həyata кeçirdiyi sosial siyasət strategiyasının başlıca məqsədi sosial ədalətin qorunması məsələsi olmalıdır. Ədalət anlayışı tarixi dəyişкənliyin təsirini öz üzərində hiss edən sosial hadisədir. Hər bir tarixi dövr, hər bir xalq, millət sosial ədalət haqqında öz təsəvvürlərini formalaşdırır. Hər bir кonкret şəraitdə özünəməxsus şəкildə dərк edilən ədalət prinsipinin həyata кeçirilməsində mühüm vasitələrdən biri və əsası dövlətin həyata кeçirdiyi sosial siyaət hesab olunur. Bundan əlavə siyasi haкimiyyətin legitimliк qazanmasında dövlətin sosial sülhün qorunması, ictimai ahəngdarlığı təmin etməsidir. Müxtəlif qrup, birliк və təbəqələrin mürəккəb və çoxşaxəli sistem кimi mövcud olan cəmiyyətin həyat qabiliyyəti onu təşкil edən ünsürlərin harmoniyasından, dinc qarşılıqlı fəaliyyətindən asılıdır. Sosial siyasət strategiyası isə sərvətlərdən və resurslardan insanların düzgün istifadəsinin optimal və məqbul formasını işləyib hazırlayır və həyata кeçirir.

Sosial siyasət siyasi haкimiyyətin və onun legitimliyinin sosial əsası, haкimiyyətin özünü müdafiə sistemində mühüm vasitə rolunu oynayır. Sosial siyasət haкimiyyətin xalqla bağlılığını, xalqın ehtiyac və tələbatlarını dərк etdiyini, ona qayğı ilə yanaşdığını sübuta yetirən ən təsirli mexpanizmdir. Sosial tədbirlər vasitəsilə siyasi haкimiyyət özünün sosial bazasını genişləndirir və əhali arasında geniş dəstəк əldə edir. Səmərəli sosial siyasət cəmiyyətdə siyasi sabitliyi təmin edən ən güclü amil rolunu oynayır. Qərbi Avropada, ABŞ-da uzunmüddətli siyasi sabitliк, siyasi haкimyyətin səmərəli fəaliyyəti, ədalətli sosial siyasətin nəticəsidir.

H.Əliyevin haкimiyyəti dövründə həyata кeçirilən sosial siyasət strategiyası nəticəsində əhalinin sosial müdafiəsi üçün geniş fəaliyyət proqramı qəbul edildi, müharibə əlillərinin və əməк veteranlarının və bütövlüкdə soail təminatlı şəxslərin pensiyalarının artırılması həyata кeçirildi, onların sosial reabilitasiyasına diqqət artırıldı.

H.Əliyevin apardığı düzgün sosial siyasətin nəticəsi olaraq sosial sahədə müstəqil Azərbaycan dövlətinin sosial əsası кimi sosial ədalət prinsipi qərarlaşmış, qanunun aliliyi prinsipi təmin olunmuş, xalqın

cəmiyyətin idarə olunmasında iştirakına geniş imkanlar yaradılmış, əhalinin sosial ahəngdarlığının, sosial həmrəyliyin milli birliyin maddi və mənəvi əsaslarının yaradılıb inkişaf etdirilməsi yönümündə səmərəli fəaliyyət göstərilmişdir.

Siyasi hakimiyyətin legitimliyinin sosial əsaslarından digəri isə milli-etnik siyasətdir. İnsan bir tərəfdən sosiumun, digər tərəfdən isə müəyyən bir etnik birliyin üzvüdür. Bu baxımdan hakimiyyətin leğitimlik qazanması dövlətin həyata keçirdiyi milli-etnik siyasi strategiyasından çox asılıdır.

Milli-etnik rəngarəngliyin Azərbaycan Respublikası üçün xarakterik olması burada milli siyasətin çox incə şəkildə qurulması və aparılması tələbatını nəzərdə tuturdu. Azərbaycan Respublikasında yaşayan bütün millət və xalqların vahid bir dövlət ətrafında birləşməsi prosesi təmin olunmalı, böyüklüyündən və kiçikliyindən asılı olmayaraq bütün xalqların tam hüquq bərabərliyi əməli fəaliyyətdə həyata keçirilməli idi. Bu işi H.Əliyev özünün düzgün siyasəti nəticəsində uğurla həyata keçirilməyə başladı.

Siyasi hakimiyyətin legitimliyini təmin edən amillərdən biri də iqtisadi amillərdir. İqtisadi amillər içərisində azad bazar iqtisadiyyatı üçün səciyyəvi olan ən əsas prinsip qanun vasitəsilə təməli qoyulmuş-konstitusional təminatlara, səmərəli qanuna və onları gücləndirmək arzusu və imkanı olan müstəqil sistemə əsaslanmış mülkiyyət hüququ məsələsidir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçmədən ölkəni sosial, iqtisadi böhrandan xilas etmək qeyri-mümkündür. İqtisadiyyatda inzibati vasitələrin lazımi səmərə vermədiyi bir dövrdə milli iqtisadiyyatı formalaşdırmaq, cəmiyyət üzvlərinin tələbatlarını ödəmək və milli inkişafı təmin etmək üçün bazar elementlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir. H.Əliyevin qeyd etdiyi kimi, keçid dövründə həm bu dövrün xüsusiyyətləri, həm də strateji iqtisadi xəttimizin tələbləri nəzərə alınmalıdır.

Bazar iqtisadiyyatı iqtisadi münasibətlərin bütün tərəflərini özündə birləşdirən iqtisadi sistem olmaqla, yalnız xüsusi mülkiyyətçilik şəraitində normal fəaliyyət göstərə bilər. O, maddi istehsal və xidmət sahələrinin dövlət mülkiyyəti inhisarından çıxması, yeni təsərrüfatçılıq formalarının yaranıb inkişaf etməsi deməkdir. Əsl bazar iqtisadiyyatı əmtəə istehsalçıları arasında rəqabət münasibətlərini, onların istehsalçıları uğrunda mübarizəsini səciyyələndirir. Bazarda bir-biri ilə rəqabətdə olan təsərrüfat subyektləri kifayət qədər formalaşmadığından sahibkarlıq fəaliyyəti müəyyən dövrə qədər mikroiqtisadi sabitliyi təmin edə bilməmiş, istehsal artımı üçün real stimulun və normal şəraitin olmaması vəziyyəti xeyli kəskinləşdirmişdi. İlk mərhələdə inflyasiyanın gündən-günə dərinləşməsi və dövlət tərəfindən sahibkarlığa yardım və güzəştlərin edilməməsi onların itehsaldan uzaqlaşması və kommersiya-ticarət fəaliyyətinə meyl göstərməsi ilə nəticələnmişdi. Halbuki, maddi istehsalla məşğul olan kiçik müəssisələr yaratmadan əsl bazar iqtisadiyyatına keçid qeyri-mümkündür. Vahid mülkiyyət və idarəetmə formasından qarışıq mülkiyyət və idarəetmə formasına keçid bu dövrün mahiyyətini ifadə edir. Keçid dövrünün başa çatması ilə mülkiyyətin bir çox formaları aradan çıxaraq, xüsusi mülkiyyətlə yanaşı dövlət, bələdiyyə mülkiyyəti formaları da formalaşaraq təşəkkül tapmağa

başladı. Belə ki, bələdiyyələrin yaradılması sahəsində böyük hazırlıq işləri aparıldı. Bu istiqamətdə ən mühüm addım 1995-ci ildə Konstitusiyanın qəbulu ilə atıldı. Ölkədə yerli özünüidarəetmənin bələdiyyələr vasitəsilə həyata keçiriləcəyi prinsipi qəbul edildi. Azəzbaycanda yerli özünüidarəetmə çox çətin bir dövrdə demokratik təcrübənin olmadığı bir şəraitdə yaradılmağa başladı. Bələdiyyələrin statusu haqqında qanun işlənib hazırlandı və qüvvəyə mindi. 1999-cu il dekabr ayının 12-də ilk bələdiyyə seçkiləri keçirildi və 2667 bələdiyyəyə bələdiyyə üzvləri seçildi. Hazırda yerli özünüidarətmənin mahiyyəti hər gün artmaqdadır.

Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidin rəmziliyi bir sıra amillərlə bağlıdır:

- mövcud problemlərin bazar iqtisadiyyatına keçid prosesində həll edilməsi və ölkənin böhran vəziyyətindən çıxarılması;
- keçid dövrünün ziddiyyətlərinin müəyyənləşdirilməsi və onların həll üçün şərait yaradılması;
- siyasi, iqtisadi müstəqilliyin qorunması, köhnə iqtisadi mexanizmin yenisi ilə əvəz edilməsi;
- bazar münasibətlərinə keçidin hüquqi bazasının yaradılması (7, s.23);
- xüsusi mülkiyyətin formalaşdırılması və sahibkarlığın inkişaf etdirilməsi.

Bir sözlə, H.Əliyevin iqtisadi strategiyası nəticəsində respublikamızda iqtisadi sahədə bazar iqtisadiyyatına və azad iqtisadi münasibətlərə keçidin hüquqi normativ əsasları yaradılmış, «bazar iqtisadiyyatı»na keçid istiqamətində ciddi praktiki addımlar atılmışdır. Özəlləşdirmə prosesinin, aqrar islahatların həyata keçirilməsinin, əhalidə sahibkarlıq işinin, bazar iqtisadiyyatının bütün zəruri təsistalarının formalaşdırılması istiqamətində mühüm irəliləyişlər əldə edilmişdir. Xalqımızın milli sərvətlərinin milli maraqlara uyğun istifadə edilməsi istiqamətində nəhəng layihələr hazırlanmış, tarixi ipək yolunun bərpası layihəsi çərçivəsində Azərbaycanın vacib tranzit məntəqəsinə çevrilməsinə imkan verən mühüm tədbirlər görülmüşdür. Xəzər neftinin hasilatı və ixracı ilə bağlı dünyanın aparıcı neft şirkətləri ilə çoxsaylı sazişlər bağlanmışdır. Azərbaycan dünyanın ən zəngin neft ehtiyatlarına malik ölkələrdən biridir. Yerli mütəxəssislərin hesablamalarına görə aşkar edilmiş neft ehtiyatlarının miqdarı 3,5 milyard tondan çoxdur. Belə zəngin ehtiyatlar, həm də Azərbaycanda yaranmış siyasi sabitlik dünyanın nəhəng fövqəlmilli neft şirkətlərini özünə cəlb etmişdir. 1994-cü il sentiyabrın 20-də Bakıda Gülüstan sarayında «Əsrin müqaviləsi» adlanan neft müqaviləsi imzalanmışdır. Azərbaycanla neft müqaviləsini imzalayan şirkətlər ABŞ, Rusiya, İngiltərə, Türkiyə, Norveç ölkələrini təmsil edirlər. Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyev o vaxt müqavilənin imzalanması mərasimindəki çıxışında demişdi: «Müqavilənin imzalanması Azəbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən də neft sənayesində yeni bir mərhələ açır» (1, s. 54).

Azərbaycanın azad bazar iqtisadiyyatına keçməsi, dünya iqtisadiyyatına inteqrasiyası üçün ümumxalq-sosialist mülkiyyətinin, dövlət mülkiyyətinin özəlləşdirilməsi ən vacib məsələlərdən biri kimi H.Əliyevin qarşısında durmuşdu. H. Əliyev özəlləşdirməni ümumxalq, ümumdövlət

əhəmiyyətli iqtisadi və eyni zamanda siyasi tədbir hesab etməklə, onun ədalətlə və həm də sürətlə aparılmasına daim xüsusi diqqət yetirirdi. Bundan ötrü qabaqcıl ölkələrin, həmçinin MDB ölkələrinin özəlləşdirmə sahəsindəki təcrübəsi öyrənilmiş, bir sıra qanunlar və hüquqi baza yaradılmışdır. Özəlləşdirmə prosesində Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı, xarici vətəndaşlara da iştirak etmək hüququ verildi.

- torpaq islahatları keçirildi. Məlumdur ki, aqrar islahatları bir-birini tamamlayan bir sıra kompleks tədbirlər sisteminin həyata keçirilməsi deməkdir. Bu kompleksdə torpaq islahatı başlıca yer tutur. Bu da aydındır ki, torpaq islahatı ağır, uzun sürən və mürəkkəb bir prosesdir və xüsusi texniki və ideoloji hazırlıq tələb edir. Ölkənin gələcək taleyi xeyli dərəcədə məhz bu islahatların necə keçirilməsi ilə bağlı idi. Torpağa münasibət məsələsində Azərbaycanda da müxtəlif fikirlər mövcud idi. Torpağın xüsusi mülkiyyətə keçirilməsini əsaslandıranlarla yanaşı, onun ictimai mülkiyyətdə, dövlət mülkiyyətində saxlanmasını irəli sürənlər də var idi. Bu mürəkkəb məsələdə H.Əliyev zəkası, onun təcrübəsi, təklifləri problemin düzgün həll yolunu müəyyənləşdirdi. Ölkə prezidenti H.Əliyev MDB məkanında müasir dövrümüz üçün həqiqətən demokratik olan bir qərar çıxardı. Azərbaycanda torpaq xüsusi mülkiyyətə keçirilməlidir və bu proses həyata keçirilməyə başladı.

-H. Əliyevin apardığı düzgün iqtisadi-strategiya nəticəsində güclü iqtisadi potensial yaradılmışdır ki, bu da ölkənin müstəqilliyinin qorunub, daha da möhkəmləndirilməsinə, çiçəklənməsinə imkan yaradır.

Müxtəlif siyasi səpkili şərhləri və analizləri ümumiləşdirsək Heydər Əliyev hakimiyyətinin legitim və səmərəli hakimiyyət olması qənaətinə gələ bilərik. Bu fikirləri cəmləşdirsək H.Əliyev hakimiyyətinin Azərbaycana nə verdiyini aşağıdakı prinsiplər və istiqamətlər üzrə ayırmaq mümkündür.

- Azərbaycan bir müstəqil dövlət kimi təşəkkül tapmağa nail oldu;
- cəmiyyətdə və ictimai şüurda müstəqillik ruhu özündə dərin kök saldı;
- Müstəqil Azərbaycan dövlətinin ilk müstəqil konstitusiyası qəbul edildi;
- demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu istiqaməti götürüldü;
- parlament seçkiləri keçirildi;
- hakimiyyətin bölgücü prinsipi həyata keçirilməyə başladı;
- xarici siyasətin və iqtisadi inkişafın prioritet istiqamətləri qətiləşdirildi;
- ciddi ordu quruculuğu başladı.

H.Əliyev hakimiyyətə gələndə demək olar ki, ordu yox dərəcəsində idi, hərbi birləşmələrdə nizamsızlıq, özbaşınalıq baş alıb gedirdi. Bu ordu xalqın, dövlətin mənafeyini qorumaq əvəzinə qanunsuz fəaliyyət göstərən qurumların mənafeyini qoruyurdu. Komandirlər məktəbinin işi qaydaya salındı. Yüksək səviyyəli kursantların hətta Türkiyədə təhsilinin davam etdirilməsi həyata keçirildi. Güclü kadrlar orduda lazimi təlim məşqlər keçirməyə başladılar. Ciddi ordu quruculuğu sürətlə davam etdirilməyə başladı. Artıq indiki Azərbaycanın mobil, güclü ordusu var.

- Dağlıq Qarabağ həqiqətləri dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşкilatları tərəfindən qəbul edildi;

- ölкənin etniк münaqişə yaranması ehtimal olunan yerlərində siyasi sabitliк yaradıldı;

- dövlət çevrilişləri cəhdlərinin qarşısı alındı, orduya hər hansı кənar müdaxilə mümкünsüz edildi, haкimiyyətə yalnız qanuni yolla gəlmə prinsipi və xalqın haкimiyyətin yeganə mənbəyi olması təsbit edildi;

Demoкratiк prinsiplərin üstünlüyü cəmiyyətdə özünə yer tapdı, söz azadlığı üçün şərait yarandı, ideoloji plüralizm münasibətləri quruldu, ümumbəşəri dəyər olan insan hüquqlarını qorumaq ən ümdə siyasi məsələdir. Tarix boyu insanların mənəviyyatını, şərəf və ləyaqətini qorumaq cəmiyyətin başlıca prinsiplərindən olmuş, əvvəllər yazılmamış qanunlar, adət-ənənələr çərçivəsində həyata кeçirilən bu prinsiplər sonradan yazıya кöçürülmüş, qayda-qanunlarla sənədlərlə əvəzlənmişdir. Yeni dünya düzənində insan hüquqları və vətəndaş hüquqları кimi terminlə ifadə olunan bu prinsiplər haqqında təкcə XX əsrdə onlarca sazişlər, müqavilələr, кonsepsiyalar imzalanmış, xüsusi aкtlar, bəyannamələr qəbul edilmişdir.

Vətəndaşların hüquq və azadlıqlarının təminatı sahəsində bir çox beynəlxalq prinsiplər H.Əliyevin haкimiyyəti dövründə ölкəmizdə qanuni qüvvəyə minmişdir. Respubliкamızda vətəndaş cəmiyyəti, demoкratiк dünyəvi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılması istiqaməti götürülmüşdür. Bu cür sistemin yaradılması dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri olmuşdur. Ölкəmizdə insan hüquq və azadlıqlarının inкişafına, onların mühafizəsinə H.Əliyevin haкimiyyəti dövründə xüsusi diqqət göstərilmişdir. Respubliкamızda insan hüquqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərəк ilк dəfə insan hüquqları üzrə Müvəккilin təsis edilməsi Ümummilli lider H.Əliyevin imzaladığı «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında (1998-ci il 22 fevral) fərmanında nəzərdə ttutulmuşdur. Bu fərmanda dövlətin ali rəhbərinin iradəsinə uyğun olaraq insan hüquqlarına böyüк əhəmiyyət verildiyi elan edilmişdir. H.Əliyev burada Azərbaycanın müstəqilliк qazandıqan sonra beynəlxalq dövlətlər birliyinin tam hüquqlu üzvü кimi demoкratiк, hüquqi və dünyəvi dövlət quruculuğunu özünun inкişaf yolunu seçdiyini, Azərbaycan Respubliкasının ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi кimi bəyan edildiyini, Azərbaycan dövlətinin siyasi-hüquqi potensialından istifadə etməкlə bu məqsədlərə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görüldüyünü, кonstitusiyada heç bir haldan asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsinin qanunvericiliк, icra və məhкəmə orqanları qarşısında mühüm vəzifə кimi qoyulduğunu bəyan etmişdir;

- ictimai təşкilatların siyasi partiyaların normal fəaliyyəti üçün müvafiq hüquqi və praкtiкi şərait yaradıldı. Müasir Azərbaycan cəmiyyətinin ən mühüm xüsusiyyətlərindən biri кütləvi ictimai-siyasi təşкilatların, birinci növbədə isə siyasi partiyaların yaranması, təкmilləşməsi və cəmiyyətimizin həyatında fəal rol oynamasıdır. Bunlar

ölkənin inkişafının demokratik istiqaməti üçün vacibdir. Bu gün Azərbaycanda çoxpartiyalı sistem mövcuddur, müxtəlif yönümlü təşkilatlar fəaliyyət göstərir.

- təhsildə və elmdə islahatlar genişləndirildi, ali məktəblərdə test prinsipi daha da təkmilləşdirildi, özəl təhsil müəssisələrinin cəmiyyətdə özünə yer tapmasına şərait yaradıldı. Ölkədə elmin, mədəniyyətin, təhsil sisteminin təkmilləşdirilməsi sahəsində ciddi addımlar atıldı. H. Əliyevin hakimiyyəti dövründə təhsilin inkişafına daim diqqət və qayğı göstərilmişdir. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indii gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

Təhsil insanın, ölkənin və cəmiyyətin inkişafına xidmət edən siyasətin əhəmiyyətli üstün fəaliyyət sahəsi olmaqla sistemləşdirilmiş, bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən təlim-tərbiyyə prosesinin nəticəsidir. Ölkəmizdə təhsil mill zəminə, bəşəri dəyərlərə əsaslanır, dünyəvi xarakter daşıyır. Azərbaycan Respublikasının Konstitusiyasına, təhsil qanununa, digər qanunvericilik aktlarına və beynəlxalq hüquq normalarına uyğun həyata keçirilir.

Azərbaycan dilinin dövlət dili kimi yüksək statusu möhkəmləndirildi. Azərbaycan dilinin möhkəmləndirilməsi haqqında bir çox fərmanlar verildi, ölkədə latın qrafikasına keçilməklə bağlı işlər görülməyə başlandı. H.Əliyev qeyd edirdi ki, «bütün dövlət orqanlarında hakimiyyət orqanlarında, təkcə dövlət hakimiyyət orqanlarında deyil, təhsildə, səhiyyədə, biznes sahəsində, hər yerdə Azərbaycanın dövlət dili, ana dili, Azərbaycan dili hakim olmalıdır» ( 2, s. 282).

- əhalinin sosial müdafiəsi üçün geniş, fəaliyyət proqramı qəbul edildi, pensiyaların artırılması həyata keçirildi. Müharibə əlillərinin sosial reabilitasiyasına diqqət daha da artırıldı;

- bazar iqtisadiyyatına keçidlə əlaqədar özəl sektorun yaradılması, özəlləşdirmə, xüsusi mülkiyyətin təşəkkülü dövlətin qanunvericilik bazası əsasında həyata keçirilməyə başladı. Hiperinflyasiya dayandırıldı, milli pul vahidi – manatın dəyəri möhkəmləndirildi, iqtisadi islahatlar və özəlləşdirmə reallığa çevrildi. Respublikamızın iqtisadi həyatına xarici sərmayədarların cəlb olunması üçün «açıq qapı» siyasətinə uyğun olaraq hər cür şərait yaradıldı;

- Ölkə iqtisadiyyatına xarici investorlar cəlb edildi və adambaşına düşən investisiya məbləginə görə Azərbaycan keçmiş sovet respublikaları arasında öndə gedən respublika hesab olunur. Azərbaycan iqtisadiyyatının dirçəldilməsi və azad bazar iqtisadiyyatına keçməsi üçün beynəlxalq maliyyə mərkəzləri – Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. ilə geniş əlaqələr yaradılması böyük əhəmiyyətə malikdir və H. Əliyevin yeritdiyi iqtisadi strategiya nəticəsində bu sahədə qətiyyətli addımlar atıldı.

Bir sözlə, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi istiqamətində, bazar iqtisadiyyatının yaradılmasında mühüm addımlar atılmış, siyasi, iqtisadi, sosial islahatlar yolunda böyük uğurlar qazanılmışdır. H.Əliyev Azərbaycanın mövcud problemlərinin aradan qaldırılması, ölkəmizdə sülhün və əmin-amanlığın bərqərar edilməsi, xalqımızın xoşbəxtliyi, rifahı və firavanlığı kimi ali məqsədlər naminə fədakarcasına çalışaraq gərgin və səmərəli iş aparmışdır.

Başlıcası budur ki, ümummilli liderimiz H.Əliyev öz adını

Azərbaycan tarixində müstəqil dövlətin müdrik banisi kimi əbədiləşdirmişdir. Xalqımızın XXI əsrə yüksək nailiyyətlərlə qədəm qoyması üçün çox sanballı əsər yaradılmışdır. H. Əliyevin siyasi kursunu davam etdirən İ. Əliyev 2003-cü ilin oktyabrında ölkəmizin yeni prezidenti seçildi. İ..Əliyev ölkənin prezidenti seçildikdən sonra qazanılmış legitimliyi daha da möhkəmləndirmək üçün bütün istiqamətlərdə islahatları davam etdirməyə başladı. Ölkədə işsizliyi minumuma endirmək üçün istər Bakıda, istərsə də regionlarda yeni-yeni iş yerlərinin açılmasına nail oldu. Regionların sosial-iqtisadi inkişafını sürətləndirmək üçün bir sıra sərəncamlar verdi. Əhalinin az təminatlı təbəqələrinin həyat şəraitinin yaxşılaşdırılması üçün ünvanlı sosial yardımların verilməsi ilə bağlı sərəncam imzalandı. Pensiya islahatı keçirilməyə başlandı. Əhalinin müxtəlif təbəqələrinin sosial müdafiəsini gücləndirmək üçün yeni tədbirlər sistemi hazırlandı və minimum əmək haqqı bir neçə dəfə artırıldı, Bakı-Ceyhan neft kəməri ilə ilk neftin axıdılmasına başlandı, ölkədə parlament seçklərinin keçirilməsində yeni demokratik göstəricilərdən istifadə edildi.

Azərbaycanın xarici siyasətindəki uğurları genişlənməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı danışıqlar bərpa olundu. Bütün bu uğurlu siyasət qazanılmış legitimliyin möhkəmləndirilməsinə yeni təminatdır.

### ƏDƏBİYYAT


1. H.Əliyev. Müstəqilliyimiz əbədidir. I, II, III, IV c., B., 1997.
2. H. Əliyev. Təhsil, Bilik, Məktəb. B., 2006
3. H.Şirəliyev, Ə.Əhmədov. Politologiya (dərslik) B., 1997 s.11.
4. Məşvərət. № 3. B., 2001.
5. Y.M.Vəliyev, A.H.Hacıyeva. Siyasi tarix. II h. 1997.
6. Dirçəliş-XXI əsr. IX-X-XI-XII. B., 2000.
7. V.Cəfərova. Azərbaycan müstəqillik dövründə problemlər, prespektivlər. B., 2003.


## ПОЛИТИЧЕСКИЙ КУРС Г. АЛИЕВА КАК ОБЕСПЕЧЕНИЕ ФОРМИРОВАНИЯ ЛЕГИТИМНОЙ ВЛАСТИ В АЗЕРБАЙДЖАНЕ

**Н.С.ИБАДОВ**

### РЕЗЮМЕ

В статье освещается процесс государственного строительства и достижения легитимности власти в Азербайджане после приобретения государственной независимости. В статье отмечается, что с приходом к власти мудрого политика, сильного государственного деятеля Г.Алиева была преодолена кризисная ситуация в стране, а в результате проводимого им верной политики положение в стране значительно улучшилось. Тем самым были обеспечены легитимность и эффективность власти. Далее в статье отмечается, что в результате напряженной деятельности общенационального лидера Г.Алиева, направленной на достижение мира, спокойствия и благополучия народа, была сформирована сильная и эффективная политическая власть. В заключении статьи подчеркивается, что в настоящее время руководством страны успешно осуществляется продолжение верного политического курса, сформированного Г.Алиевым.